

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 62 (23.224)

5 aprel 2019-cu il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin səviyyəsinin ildən-ilə yüksəldiyini və bütün sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini bildirib. Dövlətimizin başçısı müxtəlif istiqamətlərdə, o cümlədən sənaye sahəsində əməkdaşlığın inkişafından məmnunluğunu ifadə edib. Prezident İlham Əliyev son illər ölkələrimiz arasında ticarət dövriyyəsinin artmasının önəmini vurğulayıb və bu sahədə artıq yaxşı nəticələrin əldə olunduğunu deyib.

Denis Manturov qeyd edib ki, Azərbaycan Respublikası Prezidentinin ötən ilin sentyabrında Rusiya Federasiyasına səfəri zamanı dövlət başçılarının müəyyənləşdirdiyi kimi iqtisadi əməkdaşlığın konkret sahələrinin inkişafı ilə bağlı fəal iş həyata keçirilir və yeni sahələr, o cümlədən rəqəmsallaşdırma üzrə perspektivlər müzakirə edilir.

Görüşdə neft maşınqayırması, kənd təsərrüfatı texnikasının və yük vaqonlarının birgə istehsalı, helikopterlərin servis mərkəzinin yaradılması, dərman istehsalı və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə edilib.



*Son illərdə kənd təsərrüfatının inkişafında daha çox diqqəti cəlb edən istiqamətlərdən biri meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə həyata keçirilən tədbirlərdir. Bu mənada, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" bundan əvvəl qəbul edilmiş eyniadlı proqramın davamı olmaqla yanaşı, həm də əhalinin keyfiyyətli meyvə və tərəvəz məhsulları ilə təminatına imkan verib. Dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası ötən ildə də davam etdirilib.*

## Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı kənd təsərrüfatında əsas istiqamətlərdəndir



Meyvəçiliyin və tərəvəzçiliyin inkişafında vacib məsələlərdən biri əkin sahələrinin və ya yaşıllıqların suvarma suyu ilə təminatıdır. Ötən il bu sahədə bir sıra tədbirlər həyata keçirilib. Belə ki, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 616 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsinin tikintisi başa çatdırılıb. Yaşıllıqların suvarılması üçün Şərur, Babək, Culfa, Şahbuz, Ordubad, Sədərək və Kəngərli rayonları ərazilərində müxtəlif diametrli borularla, ümumilikdə, 47 kilometr suvarma xətti çəkilib, mövcud suvarma xətləri təmir edilib. Digər tərəfdən, torpaq mülkiyyətçilərinə dövlət maliyyə dəstəyinin göstərilməsi də meyvəçiliyin və tərəvəzçiliyin inkişafına öz təsirini göstərib. Əvvəlki illərdə olduğu kimi, ötən il də sahibkarlara güzəştli şərtlərlə kreditlərin verilməsi davam etdirilib. Xüsusilə yeni üzüm bağlarının salınmasında verilən kreditlərin rolu böyük olub. Belə ki, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən verilən məlumata görə, Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına muxtar respublika üzrə üzümçülüyün inkişaf etdirilməsi məqsədilə 8 layihənin maliyyələşdirilməsinə 179 min manat, 66 layihə üzrə meyvəçilik təsərrüfatlarının yaradılmasına 1 milyon 343 min 100 manat həcmində dövlət maliyyə dəstəyi göstərilib. Eyni zamanda 2018-ci ildə meyvə-tərəvəz məhsullarının tədarükü məqsədilə Şərur və Ordubad rayonlarında fəaliyyət göstərən 2 sahibkara 90 min manatlıq dövlət maliyyə dəstəyi göstərilib. Ümumilikdə, ötən il ərzində muxtar respublika ərazisində 203,3 hektar sahədə meyvə bağları salınıb, 225 min 329 üzüm və meyvə tingi əkilib.

Son illərdə meyvəçiliyin və tərəvəzçiliyin inkişaf etdirilməsi sahəsində görülən işlərdən biri də əhalini ilin bütün fəsillərində meyvə və tərəvəz məhsulları ilə təmin etmək məqsədilə yeni soyuducu anbarların tikilməsidir. Qeyd edək ki, ötən il bu amil də diqqət mərkəzində saxlanılıb, bu məqsədlə Şərur rayonunda 1 istixana təsərrüfatı yaradılıb, 1 istixana təsərrüfatının fəaliyyəti genişləndirilib. Şərur rayonunun Yuxarı Aralıq və Babək rayonunun Nehrəm kəndlərinin hər birində bir soyuducu anbarın yaradılması, Şərur rayonunun Cəlilkənd və Sərxanlı kəndlərinin hər birində bir soyuducu anbarın genişləndirilməsi davam etdirilib. Ümumilikdə, bu sahədə görülmüş işlərin nəticəsidir ki, 2018-ci ildə meyvə tədarükü bir il öncəyə nisbətən 5,4 faiz, tərəvəz tədarükü isə 1,1 faiz artıb. Eyni zamanda bunu da vurğulamaq lazımdır ki, ötən il digər sahələrlə müqayisədə ən böyük artım kənd təsərrüfatı məhsullarının istehsalında qeydə alınıb. Belə ki, 2018-ci ildə muxtar respublikada bir il öncəyə nisbətən 4,4 faiz çox, yəni 480 milyon 21 min 200 manatlıq kənd təsərrüfatı məhsulu istehsal olunub. Bu məqamda xatırladaq ki, 2019-cu ilin yanvar-fevral aylarında 15 milyon 145 min 600 manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib. Bu, 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz çoxdur.

Təbii ki, "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"nın icrası muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına təmin edilməsi ilə yanaşı, tələbatdan artıq mövsümi məhsulların ixracına da geniş imkanlar yaradıb. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin məlumatına görə, 2018-ci ildə muxtar respublikadan 101 milyon 781 min 300 ABŞ dolları dəyərində kənd təsərrüfatı, o cümlədən meyvə və tərəvəz məhsulları ixrac olunub. Buradan isə o qənaətə gəlmək mümkündür ki, muxtar respublikamız artıq yerli və keyfiyyətli meyvə-tərəvəz məhsullarının ixrac potensialına malikdir və yaxın gələcəkdə Naxçıvanın yerli kənd təsərrüfatı məhsulları xarici bazarda özünə daha böyük istehlakçı kütləsi cəlb edəcək. Bu isə meyvəçiliyin və tərəvəzçiliyin muxtar respublikanın kənd təsərrüfatı sahəsində mühüm rola malik olduğunu göstərir.

✍ **Səbuhi HƏSƏNOV**

## Kompleks quruculuq işlərinə başlanılıb

Payız kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin tərkibində olan Gülşənabad Babək rayonunun kiçik yaşayış məntəqələrindən biridir. Sovet dönəmindən yığılıb qalan sosial problemlər artıq bu kənddə də öz həllini tapmaqdadır. Belə ki, cari ilin mart ayında Gülşənabadda kompleks quruculuq işlərinə başlanılıb. Burada 144 şagird yerlik tam orta məktəb binası tikilir. Müasir layihə əsasında qurulacaq bina ikimərtəbəli olacaq. Burada müxtəlif fənn kabinələri, laboratoriyalar, şahmat sinfi, elektron lövhəli siniflər fəaliyyət göstərəcək.





Gülşənabadda kənd və xidmət mərkəzləri də inşa olunur. Eyni zamanda yaşayış məntəqəsini Cəhri kəndi ilə birləşdirən 140 metrlik körpü də yenidən qurulur. Quruculuq işləri çərçivəsində Gülşənabadda evlərə yeni su xətti çəkilir, 5 kilometrlik kənddaxili yollar abadlaşdırılır. Yollarda bərkitmə işləri başa çatdırıldıqdan sonra asfalt örtük veriləcək. Bir sözlə, Gülşənabad muxtariyyətin 95-ci ildönümündə adını abadlaşan kəndlər siyahısına yazdıracaq.

Bir neçə gündür ki, rayonun Kültəpə kəndinə də yeni ab-hava gəlib. Belə ki, adıçəkilən yaşayış məntəqəsində 360 şagird yerlik məktəb binasının inşasına başlanılıb. Təhsil ocağında 20 sinif otağı, 1 kompüter, 2 elektron, 1 şahmat sinfi, 3 laboratoriya, kitabxana, hərbi kabinə və idman zalı olacaq.

Burada kənd mərkəzi və həkim ambulatoriyası da tikilir. 3 mərtəbəli olacaq binanın birinci mərtəbəsində həkim ambulatoriyası, rabitə şöbəsi və avtomat telefon stansiyası yerləşəcək. İkinci və üçüncü mərtəbələrdə isə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı və digər qurumlar fəaliyyət göstərəcək.

Kənddə inşa edilən digər bir obyekt isə xidmət mərkəzidir. Burada ərzaq, təsərrüfat malları mağazaları, bərbər, gözəllik salonu, ət satışı dükanı fəaliyyət göstərəcək. Kəndin yolları, rabitə və elektrik xətləri də əsaslı təmir olunacaq. Yeni obyektlərin ərazilərində müasir işıqlandırma sistemləri qurulacaq və yaşıllıqlar salınacaq.

**Muxtar RZAZADƏ**

## Vəzifələr yerinə yetirilir

*Naxçıvan Muxtar Respublikasında ailə, qadın və uşaq hüquqlarının qorunması, həmçinin qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası diqqətdə saxlanılmışdır.*

Aztəminatlı ailədən olan 9 qadının peşə kurslarına cəlb olunması, məşğulluq probleminin aradan qaldırılması ilə bağlı müraciət etmiş 15 qadının isə işlə təmin olunması üçün məlumatlar aid orqanlara göndərilmişdir. "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində fəaliyyət göstərən qadınların əl işləri mağazasında 20 qadının 133 işi satılmışdır. Muxtar respublikanın 4 kənd mərkəzində "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir keçirilmişdir. Cari ilin birinci rübündə aztəminatlı ailələrin hüquqlarının qorunması, sosial problemlərinin öyrənilməsi və həlli diqqətdə saxlanılmış, 3 ailəyə müvafiq köməklik göstərilmişdir. 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında bayram tədbiri keçirilmiş, 47 istedadlı qadının 230 rəsm və əl işi, 63 müəllifin 122 kitabı və ailə təsərrüfatı ilə məşğul olan 23 qadının 78 addа ailə təsərrüfatı məhsulundan ibarət sərgiyə baxış olmuş, tədbirdə müvafiq mövzuda çıxışlar edilmiş, müxtəlif nominasiyalar üzrə səmərəli fəaliyyətlərinə görə fərqlənən 39 qadına diplom, eləcə də tədbirdə iştirak edən qadınlara gül və digər hədiyyələr verilmişdir.



Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən BMT-nin İnkişaf Proqramının layihəsi çərçivəsində Naxçıvan Muxtar Respublikasında "Dayanıqlı inkişaf üçün qadınların səlahiyyətləndirilməsi" layihəsinin həyata keçirilməsi ilə bağlı tədbirlər görülmüşdür. Belə ki, aid nümayəndələrlə görüş keçirilmiş, layihədə iştirak etmək üçün qadınların siyahısı hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının qorunması ilə əlaqədar 5 uşaq müəssisəsində və uçota alınmış valideyn himayəsindən məhrum olmuş 1 uşağın evində monitorinqlər aparılmış, Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankına 8545 uşaq haqqında fərdi məlumatlar daxil edilmişdir. Həmçinin elektron məlumat bankının istifadəçilərinin üzərinə qoyulan vəzifələrin qanunamüvafiq qaydada icra vəziyyəti ilə bağlı iclas keçirilmişdir. Sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası ilə bağlı işlər görülmüş, 10 uşaq məktəbdənkənar təlim-tərbiyə və müalicə-reabilitasiya müəssisələrinə göndərilmişdir. Hesabat dövründə övladlığa götürülmüş 5, qəyyumluğa və himayəyə verilmiş 3 uşağın uçotu aparılmışdır. Bundan başqa, Milli Teatr Günü ilə əlaqədar valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, sağlamlıq imkanları məhdud və aztəminatlı ailələrin uşaqları üçün M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında tamaşa göstərilmişdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Naxçıvan Şəhər İcra Hakimiyyəti və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərində fəaliyyət göstərən 6 uşaq bağçasında "Ağıllı uşaq" intellektual oyunu keçirilmiş, iştirak edən və qalib olan uşaqlara diplom və fəxri fərmanlar verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***



# İqtisadiyyat







*Şəhərə gəldiyim avtomobilin radiosunda Azərbaycan Respublikasının Xalq artisti mərhum Gülağa Məmmədovun ifasında "Evlənmək istəyirəm" filmindən "Yollar" mahnısı səslənir. Mahnı gözəl, sözlər gözəl, ifa daha da gözəl. Yaxşı mahnıdır, sanki ömrün yollarına yazılıb. Yollar nə qədər düz və hamar olarsa, keçdiyimiz ömür yolu da bir o qədər maneəsiz olar. İstər-istəməz bu ifa məni düşüncələr aləminə aparır.*

## Keçmişdən sabaha aparan yollar





Yol mədəniyyətdir. Bu qənaətə nə vaxt gəlinib, – deyə bilmərəm. Ancaq çox düşündürücüdür. Həqiqətən də, yol hər bir xalqın mədəniyyətinin ilkin göstəricisidir. Öz mədəni sərvətlərimiz olan tarixi abidələrlə, muzeylərlə tanışlığa da yolumuz məhz yollardan keçir. Əminliklə deyə bilərik ki, bir ölkənin tarixinin, xalqın keçmişinin sübutu məhz həmin bölgənin mədəniyyətidir. Bir məmləkətin mədəniyyəti, təbii ki, qısamüddətli zaman çərçivəsində deyil, əsrlərlə formalaşan bir amildir. İnkişaf etmiş ölkələr həm də yol mədəniyyətinə görə seçilirlər. Yol, eyni zamanda vətəndaşların rahat həyatı, güclü iqtisadiyyat deməkdir.

Bu gün Azərbaycan bütün sahələrdə olduğu kimi, özünün yol mədəniyyəti ilə də dünyada fərqlənən ölkələr sırasındadır. Respublikamızda yol infrastrukturunun qurulması işi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndər yolu təkcə mədəniyyət və iqtisadiyyat amili kimi deyil, həm də, bütünlüklə, həyat mənbəyi hesab edirdi. Görkəmli dövlət xadiminin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf ölkə iqtisadiyyatının tərəqqisində mühüm rol oynayan avtomobil yollarının bərpası və yenidən qurulmasına əlverişli şərait yaratdı. Bu işlər bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir.

Yaxın keçmişimizi xatırlasaq, təsdiq edərik ki, bu gün üzərində rahatlıqla, xoş əhval-ruhiyyə ilə səfər etdiyimiz rahat yollar o vaxt heç də ürəkaçan deyildi. Kəndlərdən şəhərə gəlmək üçün çox əziyyətli bir yol qət etməli olurduq. Ancaq dövlətimiz müstəqillik əldə etdikdən sonra "Yol mədəniyyətdir" prinsipinə uyğun olaraq yol infrastrukturu yenidən qurulmağa başlanıldı.

Muxtar respublikamızda da uğurla davam etdirilən bu proses yolnəqliyyat kompleksinin yeniləşməsinə və beynəlxalq standartlara uyğunlaşdırılmasına öz töhfəsini verib. Elə buna görədir ki, muxtar diyarın hansı səmtinə üz tutsaq, rahat və abad yollar hər kəsi mənzil başınadək müşayiət edəcək. Son illərdə bu sahədə görülən işlər, xüsusilə magistral avtomobil yollarının yenidən qurulması Naxçıvanın tranzit imkanlarını xeyli artırıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirakı ilə uzunluğu 87 kilometr olan Naxçıvan-Sədərək, uzunluğu 34 kilometr olan Naxçıvan-Culfa və uzunluğu 88,8 kilometr olan Naxçıvan-Şahbuz-Batabat magistral avtomobil yollarının müasir tələblər səviyyəsində yenidən qurularaq istifadəyə verilməsi nəqliyyat daşımalarında yeni mərhələnin başlanmasına səbəb olub. Ölkə başçısı Naxçıvanda bu istiqamətdə həyata keçirilən tədbirləri yüksək qiymətləndirərək deyib: ***"Harada ki, yol tikilir, orada inkişaf vardır. Ona görə də bu gün yol tikintisi Azərbaycanın bütün bölgələrində sürətlə gedir. O cümlədən Naxçıvanda da bu gözəl proseslər sürətlə gedir və həll olunur. Artıq burada yerli şirkətlər vardır ki, bu cür yolları çox keyfiyyətlə tikə bilirlər..."***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2018-ci il mayın 16-da "Naxçıvan Muxtar Respublikasında Culfa-Ordubad magistral avtomobil yolunun tikintisi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb, yolun tikintisinə 30 milyon manat vəsait ayrılıb. Adıçəkilən sərəncama uyğun olaraq hazırda Culfa-Ordubad magistral avtomobil yolu yenidən qurulur.

Muxtar respublikada magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Belə ki, ötən dövrdə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına uyğun olaraq 5 yaşayış məntəqəsini əhatə edən Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi, 20 yaşayış məntəqəsini əhatə edən Çeşməbasar-Boyəhməd, 13 kəndi əhatə edən Hacıvar-Vayxır-Sirab və 7 yaşayış məntəqəsini əhatə edən Şəkərabad-Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolları yenidən qurularaq istismara verilib. Muxtar respublikanın ən ucqar dağ və sərhəd kəndlərinin yol infrastrukturunun tamamilə müasirləşdirilməsi yaşayış məntəqələri arasında avtomobillərin təhlükəsiz və rahat hərəkətinə, eləcə də kəndlərin turizm potensialının artmasına və iqtisadiyyatın inkişafına səbəb olub.

2018-ci il sentyabrın 21-də Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Agentliyinin yeni Asfalt-Beton Zavod Kompleksinin istifadəyə verilməsi də bu sahəyə göstərilən qayğının bariz nümunəsidir. Açılış mərasimində Ali Məclisin Sədri bu obyektin əhəmiyyətini vurğulayaraq deyib: ***"Ölkəmiz inkişaf etdikcə əhalinin rifah halı da yaxşılaşır. İnsanlar rahat və müasir avtomobillər alır, bütün sahələr üzrə istifadə olunan maşınların sayı artır. Avtomobillərin rahat işləməsi və uzun müddət istismar olunması isə yolların abadlığından asılıdır. Yolların abad olması üçünsə, müasir asfalt zavodları istifadəyə verilməli, keyfiyyətli məhsul istehsal olunmalıdır. Bu gün istifadəyə verilən asfalt-beton zavod kompleksi də müasir tələblər səviyyəsində qurulmuşdur. Yeni texnologiyalarla təmin olunan və kompüter sistemi ilə idarə olunan zavodda keyfiyyətli asfalt istehsal olunacaqdır".***

Bu gün muxtar respublikamızda ən yüksək dağ kəndlərində belə, Avropa standartlarına cavab verən yolların yenidən qurulması inkişaf və tərəqqiyə hesablanmış müxtəlif dövlət proqramlarının uğurla həyata keçirilməsinin məntiqi nəticəsidir. Zəngin turizm potensialı olan ölkəmizə, onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamıza hər il minlərlə insan istirahət üçün üz tutur. Təbii olaraq turistlər, ilk növbədə, yollara nəzər yetirirlər, ilk olaraq yollarla tanış olur və nə qədər rahat şəkildə yollardan istifadə etsələr, bir o qədər razı qalırlar.

*Sürücünün avtomobili saxlaması ilə düşüncələrimdən ayrıldım və fərqinə vardım ki, kəndimizdən Naxçıvan şəhərinə qədər qət etdiyimiz rahat yollar sayəsində gəldiyim vaxt ərzində mövzu ətrafında narahat olmadan düşünə bilmişəm...*

**Pərviz HACILI**

## Ötən ilin uğurları torpaq mülkiyyətçilərini yeni nailiyyətlər qazanmağa ruhlandırıb

*Ulu Tanrı öz səxavətini muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonundan da əsirgəməyib. Torpaqlarının bərəkətinə söz ola bilməz. İnsanları yurd, torpaq təəssüblü, əməksevərdirlər. Son illər rayonda çoxlu sayda sənaye məhsulları istehsalı ilə məşğul olan obyektlər fəaliyyətə başlasa da, torpaq adamları bu qiymətli sərvətdən nəinki üz çevirib, əksinə, daha sıx tellərlə ona bağlanıb. Bunun bir neçə səbəbi var və onlardan biri də aqrar sahənin sənaye üçün xammal bazası rolunu oynamasıdır. Elə bu və digər səbəblərə və dövlət qayğısına rəğmən rayonun iqtisadiyyatı ilbəil gücləndirilir, müxtəlif sahələrdə qazanılan uğurlar artmaqda davam edir. Ata-babadan bu qiymətli sərvətə halal qazanc mənbəyi kimi baxan şərurlular artıq torpağı daimi iş yerinə çeviriblər.*



Bununla bağlı həmsöhbət olduğumuz Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Anar Zeynalov bildirdi ki, dövlətimiz torpaqdan səmərəli istifadə olunması üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlayır. Torpaq mülkiyyətçilərinə güzəştli kreditlərin, məhsuldar toxum sortlarının verilməsi, meliorasiya-irriqasiya tədbirlərinin aparılması, kənd təsərrüfatı texnikaları ilə təchizat məsələlərinin həll olunması və digər tədbirlər hər il aqrar sahədə qazanılan yeni nailiyyətlərlə müşayiət olunur. Bir məsələni də qeyd edək ki, bu gün Şərurda ailə təsərrüfatlarının yaradılmasına böyük diqqət yetirilir. O da vurğulanmalıdır ki, artıq bu təsərrüfat formasından kəndli-fermer təsərrüfatlarına keçid də reallıqdır.

Bir məsələ də qeyd olunmalıdır. İllər əvvəl istehsal olunan məhsulun alıcı problemi var idisə, bu gün həmin məsələ də öz həllini tapıb; rayon mərkəzində və Naxçıvan şəhərində təşkil edilən kənd təsərrüfatı məhsullarının satış yarmarkaları və müxtəlif festivallar, mövsüm üçün tələbatdan artıq istehsal olunmuş məhsulların saxlanılması üçün yaradılan soyuducu anbarlar torpaq mülkiyyətçilərinə daha bir qayğının ifadəsi kimi diqqəti çəkir.

Həyata keçirilən bütün tədbirlər bir məqsədə ünvanlanıb: torpaqlardan təyinatı üzrə və səmərəli istifadə etməklə bol və keyfiyyətli yerli məhsul istehsalına nail olmaq. Bu isə daxili bazara böyük töhfə, istehlakçı tələbatının ödənilməsinə stimul, həmçinin torpaq mülkiyyətçilərinin öz zəhmətləri hesabına ailə büdcələrini gücləndirməsi deməkdir. Şərurlular da bu həqiqəti dərindən dərk edir, rayonun, muxtar respublikanın və nəticə etibarilə, ölkəmizin sosial-iqtisadi inkişafına öz töhfələrini verməyə çalışırlar.

Öyrəndik ki, bunu ötən ilin timsalında bütün çalarları ilə görmək mümkündür. Bəhs olunan dövrdə də kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olanlar hərtərəfli dövlət qayğısını öz üzərlərində hiss ediblər. "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti Şərur rayon filialı tərəfindən 680 torpaq mülkiyyətçisinə 1 milyon 516 min 700 manat yardım olunub. Kənd təsərrüfatı işlərinin keyfiyyətli və müasir tələblərə uyğun yerinə yetirilməsi üçün sahibkar və fermerlərə 1 milyon 234 min 400 manat dəyərində 81 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası lizinq yolu ilə güzəştli şərtlərlə satılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq bu sahədə işlər davam etdirilib, rayonun kəndlərində ayrı-ayrı torpaq mülkiyyətçiləri tərəfindən müxtəlif meyvə sortları üzrə tingçilik təsərrüfatları yaradılıb. Ötən il rayonda yaz ayları ərzində 51 hektardan artıq sahədə yeni meyvə bağları salınıb, 26 hektar bağda bərpa işləri aparılıb. 1820 hektar sahədə tərəvəz yetişdirilib.

Bəhs olunan dövrdə rayonun torpaq mülkiyyətçiləri 1076 hektar sahədə kartof, 11,8 hektar sahədə tütün, 33 hektar sahədə günəbaxan, 898 hektar sahədə dən qarğıdalı, 518 hektar sahədə dənli-paxlalı, 476 hektar sahədə bostan məhsulları yetişdiriblər. Rayonun barverən meyvə bağlarından 21 min 675 ton, üzüm bağlarından 1559 ton məhsul tədarük edilib.

Strateji məhsul olan taxıla tələbatın ödənilməsində şərurlular ilbəil fəallıqlarını artırırlar. Bunun ifadəsidir ki, ötən il 3602 hektarı buğda, 746 hektarı arpa olmaqla, taxıl zəmilərindən 4348 hektar məhsul götürülüb. Bundan ruhlanan torpaq mülkiyyətçiləri cari ilin məhsulu üçün ötən ilin payızında 3524 hektarı buğda, 262 hektarı arpa olmaqla, 3786 hektar sahədə taxıl əkiblər. Taxıl əkini yazda da aparılaraq daha 38 hektar sahədə bu iş davam etdirilib. Taxılın hər hektarına 175 kiloqram olmaqla gübrə verilib.

Artıq torpaq mülkiyyətçiləri sahələrdədir. Havaların əlverişli keçməsindən istifadə edərək onlar 251 hektar sahədə kartof, 48 hektar sahədə soğan, 22 hektar sahədə sarımsaq, 2,4 hektar sahədə noxud, 335,6 hektar sahədə yonca əkini aparıblar.

Rayonun torpaq mülkiyyətçiləri cari ildə daha yüksək göstəricilərə nail olmaq əzmindədirlər. Bunun üçün onların hər cür imkanları var. Həmsöhbət olduğumuz torpaq mülkiyyətçiləri, ailə təsərrüfatı başçıları da bunu təsdiq etdilər. Düdəngə kənd sakini, ali təhsilli aqronom Faiq Ağayev bildirdi ki, Şərur rayonunun sakinləri tarixən torpağa bağlı olublar. Lakin sovet dönəmində, ictimai təsərrüfatlar dövründə onlar çəkdikləri zəhmətin qarşılığını olduğu kimi ala bilmirdilər. Ancaq o dövrdə də bu, şərurluların əllərini zəhmətdən soyutmamışdı. Elə o vaxt əldə edilən zəngin təcrübə, bu gün kənd adamına məhsul bolluğuna nail olmaq üçün yaradılan şərait onların aqrar sahədə böyük uğurlar qazanmalarına imkan verib. Neçə illərdir ki, kənd adamları belə münbit şəraitdən səmərəli istifadə edir, öz iqtisadiyyatlarını gücləndirirlər. Bu baxımdan ötən il də uğurlu olub. Bundan ruhlanan torpaq mülkiyyətçiləri erkən yazdan sahələrdədir. Onlar cari ilin bol məhsulunu yetişdirmək üçün lazımi aqrotexniki tədbirləri həyata keçirir, əkin kampaniyasını vaxtında başa çatdırmaq üçün əzmlə çalışırlar.

Zeyvə kənd sakini, "Amil-Famil qardaşları" kəndli-fermer təsərrüfatının rəhbəri Kamil İsmayılov zəngin təcrübəyə malik torpaq mülkiyyətçisi kimi tanınır. 2018-ci il onun təsərrüfatı üçün də yaddaqalan olub. Çəkilən zəhmət hesabına xeyli gəlir əldə edilib. Kamil deyir ki, Şərur torpaqlarında əkinçiliyin müxtəlif sahələrini inkişaf etdirmək mümkündür. Bu sahələr içərisində taxılçılıq başlıca yer tutur. Bunu nəzərə alaraq hər il bir neçə hektar sahədə taxıl əkir, yaxşı da məhsul əldə edirik. 2019-cu ilin məhsulu üçün ötən ilin payızında 18 hektarda taxıl əkini keçirdiyini bildirən müsahibim deyir ki, artıq əkinin yaz suvarmasına başlanılıb. Zəmilərə dövlət tərəfindən verilən gübrə də səpilib. Digər əkinçilik sahələri üçün ayrılmış torpaqlar şumlanılıb. O əmindir ki, 2019-cu ili də uğurla başa vuracaqlar.

**Muxtar MƏMMƏDOV**

Oxunması zəruri olan kitablar

# Pedaqoji irsin öyrənilməsinə layiqli töhfə

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamında böyüməkdə olan nəsillərin mükəmməl şəxsiyyət kimi formalaşması, soykökə bağlılığının möhkəmləndirilməsi, siyasi dünyagörüşünün yetkinləşməsi, dövlət idarəçiliyi prosesində iştiraka hazırlanması, ailədə, ictimai mühitdə davranış qaydalarına yiyələnməsi və sair kimi çox vacib vəzifələrə xidmət edən dəyərli əsərlər mütaliə üçün tövsiyə olunmuşdur. Sərəncamda nəzərdə tutulduğu kimi, oxunması zəruri olan kitabların siyahısının zənginləşdirilməsi işi daim diqqətdə saxlanılır, yeniyetmələrin, gənclərin hərtərəfli inkişafına, mənəvi tərbiyəsinin müasir tələblər səviyyəsində qurulmasına mühüm təsir göstərən müvafiq yeni əsərlər bu siyahıya artırılır. Bu günlərdə həmin siyahı daha bir kitabla zənginləşmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Ali Məclisin Sədri tərəfindən təsdiq olunmuş 2019-cu il üzrə Tədbirlər Planına əsasən hazırlanaraq kütləvi tirajla nəşr olunmuş "Pedaqoji fikir tarixindən" kitabı elmi-pedaqoji əhəmiyyətinə, təlim-tərbiyə prosesində mühüm roluna görə "Oxunması zəruri olan kitabların Siyahısı"na əlavə edilmişdir.*



Bu kitab həm yeniyetmə və gənclər, həm də onların təhsili, təlim-tərbiyəsi ilə məşğul olanlar üçün çox qiymətli vəsaitdir, eləcə də böyük dəyərə malik mütaliə materialıdır. Xatırlatmaq yerinə düşər ki, ümummilli liderimiz Heydər Əliyev mütaliəyə yalnız savad, bilik qazanmaq, elm öyrənmək imkanı və vasitəsi kimi baxmamış, bütövlükdə, hər bir insanın həyatını düzgün qurmasında, fəal vətəndaş mövqeyinin formalaşmasında, cəmiyyətdə gedən tərəqqi prosesində yaxından iştirak etməsində təhsilin son dərəcə vacib əhəmiyyət daşıdığını önə çəkərək demişdir: ***"İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşı hazırlamaqdır, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü hazırlamaqdır".*** Ulu öndər ölkənin və xalqın gələcəyinin yeni nəsilləri necə və hansı ruhda savada yiyələndirməkdən, tərbiyə etməkdən asılılığını xüsusi vurğulayırdı: ***"Uşaqlar bizim gələcəyimizdir. Gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, böyüdəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin gələcəyi bundan asılı olacaqdır".*** Yenicə çapdan çıxmış "Pedaqoji fikir tarixindən" kitabı da məhz böyüməkdə olan nəsillərin layiqli vətəndaş kimi formalaşmasına xidmət göstərən materialları özündə cəmləşdirməklə geniş elmi-pedaqoji, didaktik imkanlara malikdir.

ABŞ-ın 16-cı prezidenti Avraam Linkolnun oğlunun müəlliminə yazdığı məktubla başlanan bu kitabda toplanmış əsərlərin çox böyük professionallıq və dəqiqliklə seçildiyini, ilk növbədə, qeyd etmək gərəkdir. Bəllidir ki, dünya, o cümlədən Azərbaycan pedaqoji fikri zəngin və çoxşaxəli inkişaf yolu keçmiş, tarixin müxtəlif dövrlərində yaşayıb fəaliyyət göstərmiş böyük mütəfəkkirlərin dəyərli əsərləri ilə təmsil olunmuşdur. Bu qiymətli pedaqoji irsin hər bir nümunəsi təlim-tərbiyə prosesində ciddi əhəmiyyətə malikdir. "Pedaqoji fikir tarixindən" kitabında onların sırasından ən zəruri örnəklər seçilərək toplu halında oxuculara çatdırılmışdır. Məharətlə düşünülmüş bir başqa məqam isə odur ki, kitabda elmi-tədqiqat xarakterli materiallarla klassik pedaqoji-didaktik mətnlərdən seçmələr bir-birini uğurla tamamlayır. Elmi təhlillər isə quru akademizmdən uzaq olub, özünün oxunaqlılığı, haqqında söz açılan ustad pedaqoqların müvafiq əsərlərində ifadəsini tapmış ideyaların sadə, anlaşıqlı tərzdə, bir sıra məqamlarda bədii-publisistik üslubun imkanlarından da istifadə etməklə izahı ilə səciyyələnir.

Bu baxımdan publisist-politoloq Reyhan Mirzəzadənin kitabda verilmiş "Uşinskinin, Çernyayevskinin, Suxomlinskinin əziz xatirəsinə" və "Pedaqogikada misli görünməmiş təcrübə" adlı irihəcmli tədqiqatları özünün fundamentallığı və konseptuallığı ilə maraq doğurur. İlk əsərdə adları çəkilən məşhur pedaqoqların ömür yolu, fəaliyyətləri nəzərdən keçirilmiş, təlim-tərbiyəyə dair dəyərli fikirləri, müvafiq əsərləri, onların müasir əhəmiyyəti ətraflı şəkildə təhlil olunmuşdur. Azərbaycan məktəb və pedaqoji fikir nümayəndələrinin Uşinski, Çernyayevski və Suxomlinskinin irsinə müraciəti barədə deyilənlər də diqqəti cəlb edir. Bu fəsildə problemin ümumi təqdimatı boyunca məşhur ziyalımız Məhəmməd Hinduşah Naxçıvaninin fikirlərinə də nəzər salınmış, maraqlı dəyərləndirmələr aparılmışdır.

"Pedaqogikada misli görünməmiş təcrübə" isə məşhur pedaqoq A.S.Makarenkonun həyatı və yaradıcılığına həsr olunmuşdur. Görkəmli pedaqoqun ömür yolunun və müəllimlik fəaliyyətinin ən maraqlı faktlarına nəzər salan R.Mirzəzadə bir sıra səciyyəvi məqamları şərh etməklə onların müasir təlim-tərbiyə üçün böyük önəm daşıyan aspektlərini də aydınlaşdırmışdır. Makarenkonun "Pedaqoji poema"sı barədə aparılan təhlillər də bu məqsədə xidmət edir. Müəllifin haqlı qənaətinə görə, islah olunmayan uşaq yoxdur. Sadəcə, ona səbir və təmkinlə, həm də fərdi xüsusiyyətləri nəzərə alınmaqla yanaşmaq gərəkdir. Makarenkonun Azərbaycanla əlaqələri barədə də müvafiq məlumatlar nəzərə çatdırılmışdır.

Kitabda bir sıra məşhur ədiblərin – Maksim Qorkinin, Cəlil Məmmədquluzadənin, Məhəmməd Tağı Sidqinin, Nəriman Nərimanovun, Hüseyn Cavidin, Eynəli bəy Sultanovun, Məhəmməd ağa Şahtaxtlının, Məmməd Səid Ordubadinin əsərlərindən verilmiş ilə səciyyələnir. M.Qorkinin əsərlərindən "Mən necə öyrənirdim", "Oxumaq lazımdır", "Mən necə oxumuşam" başlıqları altında təqdim olunmuş parçalar müəllifin uşaqlıq illərində ən ağır şəraitdə belə, oxumağa macal tapması barədə dolğun, təsirli təsvirləri nəzərə çatdırmaqla yanaşı, hər bir yeniyetməni mütaliəyə, elm öyrənməyə həvəsləndirir, kitabların əhəmiyyətini onlara izah edir: "Kitabı sevin, o, bilik mənbəyidir, ancaq bilik insana nicat verir".

Görkəmli yazıçı-dramaturq və publisist Cəlil Məmmədquluzadənin "Maarif" əsəri kiçikhəcmli olsa da, özünün dərin məzmunu ilə önəmlidir, təhsilin tərəqqisinin əsl yolu barədə düşüncələri müfəssəl şəkildə əks etdirir.

Böyük maarifçi ədib Məhəmməd Tağı Sidqi həm ustad müəllim kimi maarifçilik hərəkatında misilsiz xidmətləri, həm də qələmə aldığı tərbiyəvi-didaktik əsərlər ilə on doqquzuncu əsrin son onilliklərində və iyirminci əsrin əvvəllərində Azərbaycanda məktəb və pedaqoji fikir tarixində çox böyük rol oynamışdır. Onun təlim-tərbiyəyə dair fikirləri bu gün də öz əhəmiyyətini saxlamaqdadır. "Pedaqoji fikir tarixindən" kitabında M.T.Sidqinin "Nümuneyi-əxlaq" dərsliyindəki qırx imla mətni və bəzi digər əsərləri, o cümlədən pedaqoji hekayələri, həmçinin "Nəsihətnamə"si, "Əzbər ediləcək hikmətli sözlər"i yer almışdır. Böyük pedaqoqun nəsihətamiz fikirləri insan həyatının ən müxtəlif sahələrində onun köməyinə çatır, düzgün yol göstərir. Bütün bunların əsasında isə elmin, maarifin tükənməz qüdrətinə ardıcıl inam dayanır. M.T.Sidqinin aşağıdakı sözləri də bundan soraq verir: "Dünyada insanın əvvəlinci vəzifəsi elm təhsil etməkdir. Elmsiz insan ruhsuz cism kimidir".

Ədəbiyyat və ictimai fikir tariximizdə məxsusi mövqeyi olan Nəriman Nərimanovun "Müəllimlər ictimainə dair" adlı irihəcmli əsəri də diqqəti çəkir. Bu əsərdə yazıçı ozamankı Azərbaycan təhsilinin qarşısında duran aktual vəzifələri, müəllim hazırlığı, yenitipli məktəblər və dərsliklər barədəki düşüncələrini ümumiləşdirmişdir. N.Nərimanovun öz fikirlərinin izahında məşhur pedaqoq Henrix Pestalotsinin ideyalarına əsaslanması, onun təlim-tərbiyəyə dair qiymətli müddəalarını ətraflı şəkildə təhlil edib dəyərləndirməsi də maraq doğurur. Tədrisin təşkilində tərbiyəvi məsələlərin daim diqqət mərkəzində saxlanılmasının vacibliyini vurğulayan N.Nərimanov bu məqsədlə H.Pestalotsinin kəlamını xatırladırdı: "Təlim gərəkdir tərbiyəyə bağlı ola". Yazıçının "Türk dilində yeni jurnal" məqaləsi uşaq ədəbiyyatının inkişaf problemlərini, "Cümə söhbəti" yazısı isə millimənəvi dəyərlərin qorunması, birlik ideyasının vacibliyi barədə düşüncələri nəzərə çatdırır. N.Nərimanovun belə əsərləri indi də təlim prosesində öz məna və dəyərini saxlamaqdadır.

Mütəfəkkir, romantik sənətkarımız Hüseyn Cavid təlim-tərbiyə mövzusunda bir sıra qiymətli məqalələr yazmışdır ki, onlardan kitabda "Naxçıvandan təbsirə", "Naxçıvana nə gördüm?", "Naxçıvana nə lazım?", həmçinin "Həsbi-hal" başlıqlı silsilə yazılar verilmişdir. Bu əsərlərdə Hüseyn Cavid böyüməkdə olan nəsillərin təlim-tərbiyəsi ilə əlaqədar özünün sistemli düşüncələrini nəzərə çatdırmışdır. Onun təlimin mahiyyəti, prinsipləri, yenitipli məktəblərin və müəllimlərin formalaşdırılması məsələləri, müəllim-şagird münasibətləri, ailədə övladların tərbiyəsi kimi aktual mətləblər barədə təhlil və dəyərləndirmələri dolğunluğu, dərinliyi ilə diqqəti çəkir. Bu əsərlərdə böyük Cavidin dünya pedaqogikasının bir sıra mühüm nümunələrinə yaxından bələdliyi də ilk baxışdan özünü göstərir.

Məşhur ziyalılardan E.Sultanovun, M.Şahtaxtlının, M.S.Ordubadinin müxtəlif əsərlərindən verilmiş seçmələr də məktəb və pedaqoji fikir tariximizin aktual səhifələrinə və problemlərinə işıq salan mətnlər kimi təqdirəlayiqdir. Bunlar həm müəlliflərin yaşayıb fəaliyyət göstərdikləri dövrün ictimai-pedaqoji mənzərəsi barədə müvafiq təəssürat yaradır, həm də bir sıra dəyərli qənaətləri bugünkü nəsillərə çatdırır.

Ümumiyyətlə, "Pedaqoji fikir tarixindən" kitabındakı bütün materiallar tərbiyəvi-didaktik mahiyyətinə görə mühüm əhəmiyyət daşıyır.

*Böyük maarifçi Həsən bəy Zərdabi yazırdı: "Yaxşı kitab çox qiymətli xəzinədir". "Oxunması zəruri olan kitabların Siyahısı"na əlavə edilən bu yeni nəşr də həmin dəyərli incilər sırasında layiqli yer tutmaqla hər bir oxucunun stolüstü kitabına çevriləcəkdir.*

**Hüseyn HƏŞİMLİ**
***Əməkdar elm xadimi, professor***

***Şagirdlərin formalaşmasında, mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün və bilik dairəsinin genişlənməsində, məntiqi təfəkkürünün, idraki bacarıqlarının inkişafında mütaliənin rolu nəzərə alınaraq aprel ayı muxtar respublikanın ümumtəhsil məktəblərində "Mütaliə aylığı" elan edilib. Bu məqsədlə aprelin 4-də Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən "Şagirdlərin formalaşdırılmasında mütaliənin rolu və əhəmiyyəti" mövzusunda tədbir keçirilib.***

# *"Mütaliə aylığı"* elan edilib



Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək təhsilə göstərilən dövlət qayğısından əhatəli bəhs edib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə tariximiz, mədəniyyətimiz və milli kimliyimiz haqqında dolğun məlumat verən, gənc nəslin həyat yolunun müəyyənləşdirilməsinə və dünyagörüşünün artırılmasına xidmət edən oxunması zəruri olan kitabların siyahısı təsdiq edilib. Ümumtəhsil məktəblərinin kitabxanalarında həmin kitablardan ibarət guşələr yaradılıb.

Mövcud şəraitdən səmərəli istifadə olunmasını, eləcə də mütaliənin şagirdlərin formalaşmasında, milli-mənəvi və ümumbəşəri dəyərlərin təşəkkülündə müstəsna rolunu nəzərə alaraq Təhsil Nazirliyi tərəfindən şagirdlərin elmi-kütləvi və bədii ədəbiyyat nümunələrini oxumağa təşviq edilməsi, onlarda mütaliə vərdişləri və mədəniyyətinin yaradılması istiqamətində davamlı tədbirlər keçirilir.

Qeyd olunub ki, şagirdlərlə məqsədyönlü maarifləndirmə işlərinin aparılmasına, oxunması zəruri olan kitabların mütaliəsinə bundan sonra da diqqət artırılmalı, şagirdlərə ümumtəhsil məktəblərinin kitabxanalarından müntəzəm və sistemli şəkildə istifadə etmək bacarığı aşılanmalıdır.

Təhsil naziri bildirib ki, "Mütaliə aylığı" çərçivəsində şagirdlərdə mütaliə mədəniyyətini formalaşdıran, onları mütaliəyə həvəsləndirən silsilə tədbirlər keçiriləcəkdir. "Mütaliə aylığı"nda "Pedaqoji fikir tarixindən" kitabının təqdimatı, oxunması zəruri olan kitabların müzakirəsi, əsərlər haqqında şagirdlər tərəfindən essenin yazılması, mütaliənin rolu və əhəmiyyəti ilə bağlı şagirdlərlə maarifləndirici söhbətlərin aparılması, "Oxu günü"nün, "Poeziya günü"nün, Cəlil Məmmədquluzadənin 150 illik yubileyinə və İmadəddin Nəsiminin həyat və yaradıcılığına həsr olunmuş ədəbi-bədii gecənin keçirilməsi nəzərdə tutulur. Həmçinin ay daxilində şagirdlər tərəfindən Azərbaycan yazıçılarının dram əsərlərindən parçalar səhnələşdiriləcək və dram müsabiqəsi keçiriləcəkdir.

Tədbirdə Naxçıvan şəhər 16 nömrəli tam orta məktəbin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Məlahət Rüstəmova, Naxçıvan şəhər 12 nömrəli tam orta məktəbin kitabxana müdiri Atikə Həsənli, Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi, Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi Güllü Allahyarova çıxış edərək şagirdlər arasında mütaliə mədəniyyətinin formalaşmasında qarşıda duran vəzifələrdən, mütaliəyə marağın yaradılmasında məktəb kitabxanalarının rolundan, oxunması zəruri olan kitabların mütaliə mədəniyyətinin formalaşmasındakı əhəmiyyətindən danışıblar. Çıxış edənlər muxtar respublikada təhsilin inkişafına göstərilən dövlət qayğısına və ümumtəhsil məktəblərində yaradılan yüksək təhsil şəraitinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# *"Vətənpərvərlik"* mövzusunda açıq dərs

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərində açıq səma altında Naxçıvan Döyüş Şöhrəti Muzeyində "Vətənpərvərlik" mövzusunda Naxçıvan şəhər ümumtəhsil məktəblərinin şagirdlərinə açıq dərs keçilib.*



Açıq dərsdə Naxçıvan şəhər 9, 16 və 2 nömrəli tam orta məktəblərin hərbi rəhbərləri Səfər Tağıyev, Salman Novruzov, Novruz Novruzov vətənpərvərlik mövzusunda çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, müəllim məktəbdə, ilk növbədə, şəxsiyyət yetişdirir və bu missiyanın təməlində vətənpərvərlik tərbiyəsi dayanır. Bu gün keçirilən tədbir də məhz bu məqsədə xidmət edir. Vətən borcu, Vətən sevgisi hər kəsin ürəyində olmalıdır. Bu sevgi onlara məhz məktəbdə aşılanmalıdır.

Bildirilib ki, istər Aprel döyüşlərində, istərsə də Ali Baş Komandanın vurğuladığı kimi, "Uğurlu Naxçıvan əməliyyatı" – Günnütün azad edilməsində əsgər və zabitlərimizin peşəkarlığı, qəhrəmanlığı və Vətənə bağlılığı sübut etdi ki, Azərbaycanda vətənpərvər nəslin yetişdirilməsi bacarıqlı hərbi kadrların formalaşmasında mühüm rol oynayır.

IX və X sinif şagirdlərinin iştirak etdikləri açıq dərsdə muzeydəki müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilmiş silah, texnika və qurğular, eləcə də müxtəlif hərbi təyinatlı avtomobillər böyük maraq doğurub.

Sonra şagirdlər Təlim-Tədris Mərkəzi ilə tanış olub, vətənpərvərlik mövzusunda müzakirələr çay süfrəsi arxasında davam etdirilib.

**Elxan BABAYEV**



***Şahbuz şəhərinin Heydər Əliyev prospektində ucaldılan Mədəniyyət Sarayı gözoxşayan görkəmi ilə buraya yeni bir gözəllik bəxş edib. Sarayın istifadəyə verilməsi  tək mədəniyyət işçilərinin deyil, bütün şahbuzluların sevincinə səbəb oldu. Çünki bu ünvan bütün rayon sakinlərinin üz tutduğu, yararlandığı bir ünvandır.***

# Böyük dövlət qayğısı...

## *Şahbuzlular bunu yeni Mədəniyyət Sarayının istifadəyə verilməsi ilə bir daha hiss etdilər*

Hələ ötən illər mədəniyyət evinin tam yararsız binasında Xalq teatrının tamaşalarına, konsert proqramlarına dəstə-dəstə gəlib zala sığmayan, sonadək ayaq üstündə dayanan tamaşaçılar var idi. Hətta hava yağıntılı olanda zalın tamamilə sıradan çıxmış tavanından süzən su belə, seyrçi marağının qarşısını ala bilmirdi. İşimlə əlaqədar mədəniyyət evində tez-tez olurdum. Əlamətdar günlərlə bağlı konsertlərin, görüş və yubileylərin keçirildiyi vaxt, Xalq teatrının tamaşalarının nümayişi zamanı dəfələrlə rənglənməsinə baxmayaraq, yağış sularından ləkə bağlamış divarların qarşısına dibçək gülləri düzülürdü ki, gələn qonaqların yanında utanmayaq. Bina o qədər yararsız vəziyyətə düşmüşdü ki, havada azacıq külək olanda, elə bil içəridə əsirdi. Məşq, qrim, paltarsaxlama otaqları olmadığı üçün kollektiv çox əziyyət çəkirdi. Məşqlər əvvəldən axıradək səhnədə keçirilir, qrimlər iş otaqlarında edilir, səliqəli qalması üçün yer olmadığından  paltarlar konsert, tamaşa nümayiş olunan zaman hər dəfə yenidən ütülənib geyinilirdi. Elə bunlara görə də Mədəniyyət Sarayı üçün yeni binanın tikilməsi bütün rayon sakinlərinin böyük arzusu idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı qədim diyarımızda xalq yaradıcılığının dərindən öyrənilməsinə və gələcək nəsillərə çatdırılmasına stimul yaratmışdır. Sərəncamdan irəli gələn tələblərdən biri də mədəniyyət evlərinin və klubların nəzdində fəaliyyət göstərən dram dərnəkləri üzvlərinin potensialı hesabına Xalq teatrının yaradılması idi. Bu dövlət sənədi muxtar respublikamızın hər yerində olduğu kimi, Şahbuz rayonunda da mədəniyyətin inkişafının yeni mərhələyə qədəm qoymasına səbəb oldu. Dram dərnəklərinin fəaliyyətindəki irəliləyiş burada 2011-ci ildə Xalq teatrının yaradılması ilə nəticələndi. Teatr bir-birinin ardınca “Ər və arvad”, “O olmasın, bu olsun”, “Şahsənəm və Gülpəri”, “Evli ikən subay” kimi əsərləri səhnələşdirdi. Şahbuz Xalq Teatrının yaradılmasında xüsusi əməkləri olan Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi mərhum Çingiz Haqverdiyevin, teatra böyük canfəşanlıqla rejissorluq edən Ramiz Cəlilovun, Badamlı kənd mədəniyyət evinin müdiri Azadə Əsgərovanın adlarını qeyd etmək də yerinə düşər.  Kollektiv hazırda Əbdürrəhim bəy Haqverdiyevin “Məşədi Qulam qiraət öyrənir” əsərini tamaşaya hazırlayır.





Rayonun mədəniyyət müəssisələrində 4 dram dərnəyi, 4 yallı və 1 folklor qrupu fəaliyyət göstərir. Qədim saz sənəti yaşadılan rayonun musiqi məktəblərində bu sənətin sirləri gənc nəslə öyrədilir. Kolanı Kənd Uşaq Musiqi Məktəbinin sazçalanlar kollektivi nəinki rayon, muxtar respublika tədbirlərində də həmişə fəallıqla iştirak edir, xoş qarşılanırlar. Müxtəlif konsert proqramlarında yallı kollektivlərinin, dram dərnəkləri və folklor qrupunun, “Batabat” instrumental ansamblının, musiqi məktəblərinin xalq çalğı, nəfəsli alətlər ansambllarının çıxışları maraqla izlənilir.

Lap qədim dövrlərdən Şahbuz toylarında sazın, tulumun, qara zurnanın, balabanın dağlara-daşlara əks-səda verən səsləri şahbuzluları musiqi üstündə kökləyib, burada onlarla xanəndənin, müğənninin, xalq çalğı alətləri ifaçılarının yetişməsinə səbəb olub. Qazanılan uğurlar kollektivləri daha da ruhlandırır.

Onu da bildirək ki, ötən il ümummilli liderimiz Heydər Əliyevin 95 illik yubileyi münasibətilə musiqi məktəbləri arasında keçirilən muxtar respublika müsabiqəsində rayon və Kolanı Kənd Uşaq Musiqi məktəblərinin şagirdləri əhəmiyyətli uğurlar qazanıblar.

Maraqlı bir faktı da qeyd edim ki, rayon uşaq musiqi məktəbi istifadəyə verilərkən burada musiqi alətlərinin təmiri üçün otağın ayrılması bu ucqar dağ rayonunun musiqiçilərini bir sıra çətinliklərdən azad etmişdir. Məktəbin müəllimi Natiq Quliyev illərdir ki, musiqi alətlərinin təmiri ilə yanaşı, həm də yenilərini də hazırlayır. Bütün bunlar isə ümumilikdə, rayonda mədəniyyətin inkişafına hər kəsin öz töhfəsidir.

Yeni, əzəmətli və yaraşıqlı binada Mədəniyyət Şöbəsi, Mədəniyyət Sarayı və Şahbuz Rayon Xalq Teatrının fəaliyyət göstərməsi üçün müasir iş şəraitinin yaradılması,  proyektorla təmin edilmiş 224 yerlik tamaşa zalının, dekorasiya otağı, 4 qrim, məşq və paltarsaxlama otaqlarının istifadəyə verilməsi rayonda mədəniyyətin inkişafına əvəzsiz töhfədir. Açılış mərasimində Ali Məclisin Sədri cənab Vasif Talıbovun dediyi kimi:

***“... Şahbuz rayonunda fəaliyyət göstərən dərnəklər, folklor və yallı qrupları üçün lazımi şəraitin yaradılması imkan verəcək ki, mədəniyyət kollektivləri öz repertuarlarını zənginləşdirsinlər, konsertlər hazırlayaraq rayon ictimaiyyətinə təqdim etsinlər. Həmçinin muxtar respublikada fəaliyyət göstərən mədəniyyət kollektivləri burada konsertlər və tamaşalar hazırlayacaqlar. Bir sözlə, Şahbuz Rayon Mədəniyyət Sarayının istifadəyə verilməsi mədəniyyətimizin qorunub gələcək nəsillərə çatdırılmasına və daha da zənginləşdirilməsinə xidmət edəcəkdir”.***

Gözlər önündə hər gün kərpic-kərpic ucalan böyük quruculuq tarixinin ərməğanları, ümumilikdə, rayon sakinlərinə, xüsusilə də gənc nəslə çox məqamları açıqlayır: Dövlətin vətəndaşlarına qayğısını, ucqar yurd yerlərimizə diqqətini, qurulub-yaradılanlarla gündən-günə müasirləşən el-obamızı, bir də bütün yaradılanları  olduğu kimi qoruyub saxlamağı, istənilən sahədə böyük uğurlara imza atmağı.

**✍ Mətanət MƏMMƏDOVA**

## *Estafet*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamı hami təşkilatlar ilə təhsil müəssisələri arasında uğurlu əməkdaşlığa nail olunmasına, bununla da muxtar respublikada mütəşəkkil kadr hazırlığına  öz bəhrəsini verməkdədir. “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncam isə “İdeyadan başlanğıca” devizi altında innovasiyaya və dayanıqlı inkişafa əsaslanan, yaradıcı düşüncəni və elmi-texniki tərəqqini əks etdirən birgə yeni layihələrin (startapların) həyata keçirilməsi ilə bağlı mühüm bir mərhələnin əsasını qoydu.*

*“Şərq qapısı” qəzeti də müvafiq Sərəncamın icrasını diqqət mərkəzində saxlayır, muxtar respublikada jurnalistika üzrə yüksəkixtisaslı kadrların yetişdirilməsi istiqamətində tədbirlər görülür. Bu tədbirlərin davamı olaraq jurnalist tələbələrin mətbuatda mütəmadi çıxışlarını təmin etmək məqsədilə yeni “Estafet” rubrikası yaratdıq. Beləliklə, estafet muxtar respublikamızın zəngin mətbu ənənələrini davam etdirə biləcək, yüksək intellektə və yaradıcı potensiala malik tələbə-gənclərindir. İnanırıq ki, həm jurnalistikanı həyat amalı seçən, həm də analitik təfəkkürə, bədii təxəyyülə və publisistik düşüncəyə malik digər yaradıcı tələbə-gənclərimiz “Estafet”lə peşəkarlığa aparan uğurlu bir sənət yolçuluğuna çıxacaqlar.*

# Jurnalist peşəsi – həyat amalım

Həyatda ən böyük arzularımdan biri ali təhsil almaq idi. Orta məktəbdə oxuduğum dövrdən bu arzumu gerçəkləşdirməyə çalışırdım. Ailəmin dəstəyi, çalışqanlığım sayəsində bu hədəfə çatdım.

Ədəbiyyata, publisistikaya olan marağım, yazmaq həvəsim məni Naxçıvan Dövlət Universitetinin  Jurnalistika ixtisasına gətirdi. Peşəyə olan məhəbbətim və əzmkarlığım mənə həyat amalımı reallaşdırmağa dəstək oldu.

Jurnalistika prinsip etibarilə şərəfli və müqəddəs bir peşədir. Artıq bütün dünyada qəbul olunub ki, jurnalistika dördüncü hakimiyyətdir. Jurnalist hadisəyə, fakta, informasiyaya söykənən prinsiplərə əsasən fəaliyyətini qurmalıdır. Bütün çətinliklərə baxmayaraq, jurnalist ədalətin tərəfini saxlamalı və bunun üçün mübarizə aparmalıdır. Əsl jurnalist mövzuya obyektiv yanaşmalı, doğru ilə yanlışı seçməyi bacarmalıdır. Açıqfikirli, dürüst, vicdanlı, qərəzsiz olmaq jurnalistikanın ən vacib şərtlərindəndir. Jurnalist haqsızlığa qarşı səsini ucaltmağı bacarmalı, işini sevən, məsuliyyətli olmaqla yanaşı xalqına, dövlətinə xidmət etməli, həqiqətlə yalanı ayırd etməyi bacarmalıdır.

Jurnalistika peşəsində əsas keyfiyyətlərdən biri də ünsiyyət qurmaq bacarığıdır. İnsanların fikirlərini dinləmək və hörmətlə yanaşmaq jurnalistin vəzifə borcudur.

İnsan öz xalqını sevməyə, nə şəkildə olursa-olsun, ona xidmət etməyə borcludur. Mən isə xalqıma gələcəkdə peşəkar bir jurnalist kimi xidmət etmək arzusundayam.

Cəmiyyətin dəqiq informasiya əldə etmək üçün peşəkar jurnalistlərə ehtiyacı var. Çünki ictimaiyyətə obyektiv, düzgün, operativ məlumatlar çatdırılması bilavasitə jurnalistlərin vəzifə borcudur.

Jurnalistikanın bütün sahələri əhəmiyyətli olsa da, fikirlərimi insanlara, cəmiyyətə səmimi şəkildə çatdırmaq, mətbuat orqanları üçün yazılar qələmə almaq məndə daha çox maraq doğurur. Çünki jurnalistikanın bütün sahələrində – istər televiziya, istərsə də radioda belə, ilkin material yazılı mətnə əsaslanır. Jurnalistin yaxşı qələm sahibi olması onun peşəkarlığına dəlalət edir.

Təhsil aldığım universitetdə də Jurnalistika ixtisasının tələbələri üçün lazımi şərait yaradılıb. Burada fəaliyyət göstərən Media Mərkəzi tələbə-jurnalistlərin ilkin peşə vərdişlərinə yiyələnmələri üçün əvəzsiz rol oynayır.

Ali Məclis Sədrinin müvafiq sərəncamına əsasən hamiliyə verilmiş Jurnalistika ixtisasının tələbələri ilə muxtar respublikanın mətbuat orqanlarının müntəzəm iş aparması biz tələbələr üçün geniş imkanlar açır, öz potensialımızdan daha səmərəli istifadə edə bilirik. Həmin mətbuat orqanlarının müasir maddi-texniki bazaya malik olması, hərtərəfli şərait biz tələbə-jurnalistlərə də yaradıcılıq stimulu verir. Çalışacağıq ki, mətbuatla əməkdaşlığımızı daha da gücləndirək. Mən də öz yolumu artıq “Şərq qapısı” qəzetindən salmışam. Məqsədim qədim və müasir Naxçıvanı, muxtar respublikanın hərtərəfli inkişafını öz qələmimlə bu qəzet vasitəsilə təbliğ etməkdir.

**Nardanə ƏLİYEVA**
***Naxçıvan Dövlət Universitetinin***
***Jurnalistika ixtisası üzrə***
***II kurs tələbəsi***

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin mart ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3603 | 263,0 | 263,0 | 100,0 |
| 2. | Şərur rayonu | 2245 | 159,4 | 159,4 | 100,0 |
| 3. | Babək rayonu | 1620 | 115,0 | 115,0 | 100,0 |
| 4. | Ordubad rayonu | 1056 | 75,0 | 75,0 | 100,0 |
| 5. | Culfa rayonu | 983 | 69,8 | 69,8 | 100,0 |
| 6. | Kəngərli rayonu | 769 | 54,6 | 54,6 | 100,0 |
| 7. | Şahbuz rayonu | 433 | 30,5 | 30,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 184 | 13,0 | 13,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 13407 | 1206,6 | 1202,5 | 99,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **24300** | **1986,9** | **1982,8** | **99,8** |

**Qeyd:** Mart ayında texniki itki nəzərə alınmaqla daxil olan 24 milyon 300 min kilovat-saat elektrik enerjisinin dəyəri 1 milyon 986 min 900 manat olmuş, cəmi 1 milyon 982 min 800 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,8 faizini təşkil edir.


**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** ***AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.***
***Telefonlar: Məsul katib: 545-62-47***
***Şöbələr: 545-81-44, 545-51-18***
***Müxbirlər: 545-75-21, Faks: 544-52-52***
**E-mail:** ***serqqapisi@nakhchivan.az***

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:*** **Ramiyyə Əkbərova**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1495. Sifariş № 241**